# Bakıda Rusiyanın Aleksandrinski teatrının təhsil proqramına start verilib

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Rusiyanın Milli Dram Teatrının təşəbbüskarı olduğu "Aleksandrinski teatr məktəbi: MDB-nin iştirakçısı olan dövlətlərlə əməkdaşlığın inkişafı" təhsil proqramının təqdimatı mərasimi olub.**



Təhsil proqramı dekabrın 19-dan 21-dək Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında keçiriləcək.

Layihənin təqdimatında çıxış edən Aleksandrinski Teatrının direktoru Sergey Yemelyanov vurğulayıb ki, təşkilatçılar üç gün ərzində keçiriləcək kursa sığmayan proqramı imkan daxilində və bütünlüklə həyata keçirməyə çalışacaqlar.

Sankt-Peterburq Dövlət Universitetinin prorektoru Anastasiya Yarmış iki teatrın tamamilə unikal formatda tədris imkanı yaratdığını qeyd edib. O diqqətə çatdırıb ki, əvvəllər teatrlarda belə layihələr həyata keçirilməyib. Prorektor deyib: "Bir mədəniyyət müəssisəsinin divarları arasında teatrı yaradanları öyrətmək Sankt-Peterburq Dövlət Universitetinin qürur hissi ilə qəbul etdiyi yüksək şərəf və çağırışdır".

Azərbaycan.- 2024.- 20 fevral, № 38.- S.15.